## Makroiqtisadi göstəricilər gələcək inkişafdan xəbər verir

Həyata kecirilən bütün tədbirlər əhalinin rifahının yaxşılaşmasına, yoxsulluq həddinin minimuma endirilməsinə xidmət edir

Azərbaycan iqtisadiyyatına 1995-ci ildən bu günə qədər qoyulan investisiyaların həcmi 120 milyard ABŞ dolları təşkil edir. Ölkənin yalnız neft-qaz sektoruna qoyulan investisiyaların həcmi 50 milyard ABŞ dollar səviyyəsindədir.

Nazirlər Kabinetinin 6 ayın yekunları ilə bağlı iclasında Azərbaycana qoyulan investisiyalardan, neft-qaz və qeyri-neft-qaz sektorunda həyata keçirilən layihələrdən danışan Prezident İlham Əliyev qeyd etmişdir ki, ötən əsrin 90-cı illərinin ortalarından Azərbaycanın neft siyasətində islahatlar aparılır, təzyiqlərə baxmayaraq, məqsədlərə nail olunub: «Bakı-Tbilisi-Ceyhan neft kəməri təkcə Azərbaycan neftinin dünya bazarlarına çıxarılması üçün deyil, yeni marşrut baxımından da əhəmiyyətli idi və yeni dəhliz açıldı. Biz bu dəhliz vasitəsilə pəncərədən başlayaraq qapı açdıq. ARDNŞ-ni dünya miqyaslı nəhəng neft şirkətinə çevirməyə nail olduq. Neft bizim əlimizdə müasir dövlət yaratmaq üçün vasitədir».

Dövlət başçısı bildirmişdir ki, 2012-2013-cü illər ərzində regionların inkişafına ayrılan vəsaitlərin həcmi artırılacaq. 2012-ci ildə Azərbaycan iqtisadiyyatına qoyulan investisiyaların ümumi həcminin ən azı 20 milyard dollar təşkil edəcəyi gözlənilir. Dövlət investisiyalarının həcmi isə 7 milyard manat civarında proqnozlaşdırılır. Prezident İlham Əliyev bildirmişdir ki, neft sektorundan əldə olunan gəlirlərin qeyri-neft sektorunun inkişafına yönəldilməsi nəticəsində yaxın illərdə bu istiqamətdə böyük uğurlar əldə olunacaq.

Azərbaycan hökuməti 2012-ci ildə iqtisadi artımı qeyri-neft sektorunun hesabına təmin etməyi planlaşdırır. Hökumətin proqnozlarına görə, 2012-ci ildə sosial-iqtisadi inkişaf konsepsiyası layihəsi çərçivəsində ümumi daxili məhsulun (ÜDM) real artım sürəti 5,7%, qeyri-neft ÜDM-i - 8,6%, neft ÜDM-i isə 1,5% təşkil edəcək. İnflyasiya səviyyəsinin 6% olacağı gözlənilir. Azərbaycan hökumətinin hesablamalarına görə, növbəti üç ildə Azərbaycanın qeyri-neft sektorunda artım dinamikası daha sürətli olacaq və nəticədə 2015-ci ildə qeyri-neft sektorunun ÜDM-də payı 44,4%-dən 61,3%-ə çatacaq. Bu, qeyri-neft sektorunun dinamik inkişafına, ölkə iqtisadiyyatının diversifikasiyasına yönəldilmiş siyasətin nəticəsi hesab olunur.

Makroiqtisadi proqnozlarına görə, 2012-ci ildə qeyri-neft sektorunda 8,6%, 2013-cü ildə 7,7%, 2014-cü ildə 8,1%, 2015-ci ildə 8,3% artım olacaq.

Azərbaycan hökuməti ölkə iqtisadiyyatına qoyulan investisiyalarla və qeyri neft sektorunda sürətli inkişafa nail olmaqla, son nəticədə əhalinin rifahının yaxşılaşmasına, insanların yaşayış səviyyəsinin yüksəldilməsinə, yoxsulluq həddinin minimuma endirilməsinə calışır. Ötən il ölkəmizdə əhalinin gəlirləri 19,6% artaraq 30,6 milyard manata, hər nəfərə düşən məbləği isə 18,1% çoxalaraq 3.383,8 manata çatmışdır. Ötən il Azərbaycanda inflyasiya birrəqəmli səviyyədə - 7,9% həddində saxlanılmışdır. Əhalinin pul gəlirləri isə 19,6% artmışdır. Bu statistik rəqəmlər əyani şəkildə göstərir ki, inflyasiya ilə əhalinin pul gəlirləri arasındakı fərq kifayət qədər böyükdür. Bu isə insanların rifahının yaxşılaşması deməkdir. Yeri gəlmişkəni, son 7 ildə əhalinin gəlirləri 4,5 dəfə artaraq inflyasiya səviyyəsini (1,9 dəfə) keçmişdir. Beləliklə, əhalinin gəlirləri real ifadədə 2,3 dəfə artmışdır.

Dövlət Statistika Komitəsindən verilən məlumata görə, Azərbaycanda yoxsulluq həddi 2003-cü ildə 35,8 manat olduğu halda, 2011-ci ildə bu göstərici 3 dəfə artaraq 106,9 manata çatmışdır. Ölkəmizdə yoxsulluğun səviyyəsi 2003-cü ildə 44,7%, 2004-cü ildə 40,2%, 2005-ci ildə 29,3%, 2006-cı ildə 20,8%, 2007-ci ildə 15,8%, 2008-ci ildə 13,2%, 2009-cu ildə 10,9%, 2010-cu ildə isə 9,1% təşkil etmişdir. Ötən illərdə yoxsulluğun azaldılması ilə bağlı həyata keçirilən tədbirlər yüksək nəticələr vermiş və Azərbaycanın bu sahə üzrə göstəriciləri inkişaf etmiş dövlətlərin səviyyəsinə çatmışdır. 2011-ci ilin nəticələrinə görə, ölkəmizdə yoxsulluq səviyyəsi 1,5% azalaraq 7,6%-ə enmişdir. Məcburi köçkünlər arasında isə yoxsulluq həddi son 8 ildə 74%-dən 18%-dək azalmışdır.

Rəşad SADIQOV